# Qırx yaşlı məktəbin uğurları




Sumqayıtın qabaqcıl təhsil ocaqlarından sayılan 25 nömrəli tam orta məktəb öz qapılarını 40 il əvvəl şagirdlərin üzünə açıb. Bu illər ərzində pedaqoji kollektivin gərgin əməyi və birgə səyləri ilə neçə-neçə uğura imza atılıb. Ötən dərs ilində isə məktəb ikinci dəfə "Ən yaxşı ümumtəhsil müəssisəsi" müsabiqəsinin qalibi olmuşdur.

Məktəbin ən böyük uğuru onun yetirmələridir. Sumqayıtda sayılıb-seçilən nüfuzlu ziyalıların böyük bir dəstəsi vaxtilə məhz bu məktəbdə oxuyub. Onların arasında tanınmış alim, mühəndis, müəllim, psixoloq, həkim, iqtisadçı və digər peşə sahibləri də var. Elə məktəbin yubiley tədbirinə də adlı-sanlı məzunların böyük bir qrupu təşrif gətirmişdi. Uzun illər elə bu təhsil ocağına rəhbərlik etmiş, hazırda Sumqayıt Dövlət Universitetində çalışan adlı-sanlı pedaqoq, şair və publisist Əvəz Mahmud Lələdağ, ilk pedaqoji təcrübəyə məhz burada yiyələnmiş qabaqcıl məktəb direktorları Nadir Atakişiyev və Nizami Əhmədov, Ekoloji tərbiyə və təcrübəçilik mərkəzinin direktoru Emilya Səfərova, uşaq bağçası müdiri Sidqiyə Xıdırova və başqaları yubiley sevincini doğma kollektivlə birgə yaşadılar.

Məktəbin direktoru Ruhiyyə Əlirzayeva iştirakçıları salamladı, təhsilə göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısı cənab İlham Əliyevə dərin minnətdarlığını ifadə etdi. O, qazanılan uğurlardan bəhs edərək dedi ki, fənn aylığı çərçivəsində şəhər miqyasında keçirilən "açıq dərs"lərdə məktəbin müəllimlərindən Hüsniyyə İbrahimova, Şamama Hüseynova, Nuranə Ağayeva, Sevinc Məmmədova fərqlənərək qalib gəlib, hədiyyə və fəxri fərmanlarla təltif olunublar.

Son üç ildə 25 nömrəli məktəbin ali məktəblərə qəbul üzrə göstəriciləri respublika və şəhər göstəricilərindən yüksək olub. 500-dən yuxarı balla tələbə adını qazananların sayı ilbəil artır. İstedadlı uşaqların aşkar edilməsində müxtəlif təşkilatlarla birlikdə keçirilən tədbirlərin böyük rolu olub. Belə ki, ötən il X sinif şagirdi Əfsanə Məmmədyarovanın "Təhsil millətin gələcəyidir" mövzusunda yazdığı inşa "Prezident Sumqayıt məktəblilərinin gözü ilə" kitabına daxil edilib. X sinif şagirdi Nurlan Sehranov "Gələcək nəsillərlə üz-üzə" 5-ci ümumrespublika inşa müsabiqəsində II yerə, VII sinif şagirdi Afaq Quliyeva isə "Fövqəladə hallar uşaqların gözü ilə" yaradıcılıq müsabiqəsində "Plakat" nominasiyası üzrə III yerə layiq görülüblər.

Məktəbin idmançıları respublika və beynəlxalq yarışlarda da uğurla çıxış edirlər. Turan Əsədzadə VI Dünya Şotokan çempionatında I yeri tutub. Mələk İsmayılova 8-18 yaşlı qızlar və oğlanlar arasında keçirilən Avropa birinciliyində qalib gəlib.

Böyüyən nəslin hərbi-vətənpərvərlik tərbiyəsi də daim diqqət mərkəzində saxlanılır. Şagirdlərə Milli Qəhrəmanlarımız haqqında məlumatlar verilir, videoçarxlar göstərilir ki, bu da onlarda vətənə məhəbbət hissini daha da artırır. Məktəbin şəhid olmuş məzunlarının ailə üzvləri ilə görüşlər, onların xatirəsinə həsr olunmuş tədbirlər unudulmaz təsir bağışlayır. Şagirdlərin vaxtaşırı Şəhidlər xiyabanına ziyarəti təşkil edilir. Məktəbin həyətində şəhid məzunların xatirəsini əbədiləşdirən abidənin olması şagirdlər üçün bir örnəkdir...

Yubiley tədbiri ədəbi-bədii kompozisiya ilə müşayiət olundu. Aparıcıların doğma məktəbin tarixi, ünlü məzunları və bugünkü nailiyyətləri barədə məlumatları maraqla dinlənildi. 2010 və 2015-ci illərdə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə keçirilən "Ən yaxşı ümumtəhsil müəssisəsi" müsabiqələrində 25 nömrəli məktəbin qalib gəlməsi, Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyasının "İlin ən yaxşıları" müsabiqəsində fərqlənməsi xüsusi vurğulandı. Qeyd olundu ki, məktəbdə gözəl ənənələr layiqincə davam etdirilir. Son illərdə məktəbin pedaqoqlarından üç nəfəri - Şakir Quliyev, Hüsniyyə İbrahimova və Cəmalə Cəfərova isə "Ən yaxşı müəllim" müsabiqəsinin qalibi olublar.

Mərasimdə çıxış edən qonaqlar kollektivi 40 illik yubiley münasibətilə təbrik etdilər, ən xoş arzularını bildirdilər. Şagirdlərin ifasında şeirlər, mahnılar səsləndi, səhnəciklər, rəqslər ifa edildi.

**Əli NƏCƏFXANLI,**
*Azərbaycan Yazıçılar Birliyinin üzvü, H.B.Zərdabi adına media mükafatı laureatı*